# Mədəni və ədəbi irsimizin təntənəsi

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə İmadəddin Nəsiminin 650 illiyinin qeyd olunması və 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi mütəfəkkir şairin zəngin irsinin tanıdılması və təbliğinə böyük töhfə olmaqla yanaşı, Azərbaycan xalqının çoxəsrlik tarixə malik mədəniyyət və ədəbiyyatının növbəti təntənəsidir.

Yubleylə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 2019-cu il tarixli sərəncamı ilə Tədbirlər Planı təsdiqlənib. Planda Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və digər qurumların iştirakı ilə müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub. O cümlədən Mədəniyyət Nazirliyi tərəfindən "Nəsimi – şeir, incəsənət və mənəviyyat" 2-ci Beynəlxalq Festivalının (sentyabr-oktyabr), Frankfurt və İstanbul beynəlxalq kitab sərgilərində (oktyabr-noyabr) Nəsiminin yubileyinə həsr olunmuş tədbirlərin, TÜRKSOY təşkilatı çərçivəsində yubiley tədbirlərinin keçirilməsi, Fikrət Əmirovun "Nəsimi dastanı" balet tamaşasının hazırlanması, Nəsimi haqqında və şairin əsərlərindən ibarət kitabların nəşri və s. planda əksini tapıb. Qeyd etmək lazımdır ki, bu tədbir və layihələrin bir qismi artıq reallaşıb.

Bununla yanaşı, dövlət başçısının sərəncamının icrasını təmin etmək üçün Mədəniyyət Nazirliyinin əmri ilə tədbirlər planı da hazırlanaraq icra olunmaqdadır. Plan şəhər (rayon) mədəniyyət müəssisələrində yubileyə həsr olunmuş ədəbi-bədii gecə, konfrans, dəyirmi masa, seminar, kitab sərgisi, bədii qiraət, rəsm müsabiqələri kimi silsilə tədbirləri ehtiva edir.

Ötən müddətdə xeyli hissəsi həyata keçirilən bu tədbirlər nazirliyin mətbu orqanı olan "Mədəniyyət" qəzetində davamlı şəkildə işıqlandırılıb. O cümlədən regional mədəniyyət idarələrinin "Nəsimi ili"ndə fəaliyyəti qəzetin səhifələrində geniş əksini tapıb. Oxuculara təqdim olunan "Nəsimi 650" xüsusi buraxılışı "Nəsimi ili"nə töhfə olmaqla bərabər, paytaxtda, şəhər və rayonlarımızda bu çərçivədə keçirilən rəngarəng tədbirləri, incəsənət layihələrini bir daha məcmu halda diqqətə çatdırır.

Mədəniyyət qəzetinin xüsusi buraxılışı.- 2019.- iyul. S. 2.